AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN FORMALAŞDIRILMASI VƏ İNKİŞAFI İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Elçin Fərhad oğlu Osmanov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Biznes Universitetinin "Biznesin təşkili və bələdiyyə idarəetməsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Xatirə Mail qızı Hüseynova**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Səbinə İzzət qızı Vəliyeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Asif Mirlazım oğlu Mustafayev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Asif Abuzər oğlu Həsənov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri:
AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi:
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri:
iqtisad elmləri doktoru, professor,
Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Beynəlxalq münasibətlər sistemində qloballaşma proseslərinin intensivləşməsi, hər bir ölkə qarşısında yeni çağırışlar və vəzifələr formalaşdırmaqdadır. Təxminən 30 il ərzində Qarabağ və ətraf rayonların Ermənistanın işğalı altında qalması, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması baxımından strateji və siyasi cəhətdən son dərəcə əhəmiyyətli məsələlər yaratmışdır. 2020-ci il 27 sentyabr tarixində başlanan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycanın işğal altında olan əraziləri azad edilmiş, ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri üzərində faktiki nəzarəti təmin olunmuşdur. Bunun davamı olaraq, 2023-cü ilin sentyabr ayında həyata keçirilmiş lokal antiterror tədbirləri nəticəsində dövlətin suveren hüquqları tam şəkildə bərpa olunmuşdur. Hazırkı mərhələdə isə işğaldan azad edilmiş ərazilərdə (İAEƏ-də) bərpa, yenidənqurma və dinc quruculuq prosesi intensiv şəkildə davam etdirilir.

İAEƏ -də yüksək iqtisadi potensiala malik olmaqla, ölkənin qeyri-neft sektorunun inkişafında mühüm rol oynaya biləcək sahələri – kənd təsərrüfatını, emal sənayesini və turizmi əhatə edir. Bu sahələrin inkişafı ixracın şaxələndirilməsi və regionların iqtisadi canlanması baxımından strateji əhəmiyyət kəsb edir. Bu nöqteyi nəzərdən, İAEƏ-də kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin formalaşdırılması və genişləndirilməsi xüsusi aktuallıq daşıyır. KOS-un inkişaf etdirilməsi ilk növbədə, həmin ərazilərdə məskunlaşacaq əhali üçün dayanıqlı məşğulluğun təmin olunması, gəlir səviyyəsinin artırılması və iqtisadi fəallığın stimullaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, bu proses əhalinin sosial-iqtisadi inteqrasiyasının gücləndirilməsinə, regionda orta təbəqənin formalaşmasına və ümumi rifah səviyyəsinin yüksəldilməsinə şərait yaradır. Bütün bunları nəzərə alaraq, İAEƏ-də KOS-un inkişafı istiqamətində həyata keçirilən siyasətlərin beynəlxalq təcrübə əsasında qurulması və inkişaf etmiş ölkələrin uğurlu modellərindən istifadə olunması məqsədəuyğundur.

İAEƏ-də iqtisadi inkişafın sürətləndirilməsi prosesi bütövlükdə ölkə iqtisadiyyatının bərpası və struktur transformasiyası ilə sıx

şəkildə əlaqəlidir. Bu kontekstdə Azərbaycan Hökuməti İAEƏ-nin milli iqtisadiyyata inteqrasiyasını təmin etmək məqsədilə kompleks tədbirlər həyata keçirir. Bu tədbirlər sırasında, xüsusilə Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü"ndə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması ölkənin iqtisadi rayonlarının institusional əsasda təkmilləşdirilməsinə xidmət edir[1]. Bu yanaşma, eyni zamanda, sözügedən regionlarda iqtisadi artımın təşviqi məqsədilə dövlət büdcəsindən vəsaitlərin ayrılmasını hüquqi və inzibati baxımdan asanlaşdırır.

Qeyd edək ki, ölkə başçısının siyasi iradəsinə uyğun olaraq, artıq bu ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma tədbirləri həyata keçirilir və bu çərçivədə əhalinin könüllü şəkildə kütləvi qayıdışı prosesinə start verilmişdir. Prezidentin digər bir sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda işğaldan azad olunmuş torpaqlara Böyük Qayıdışın təmin olunması xüsusi prioritet kimi müəyyən edilmişdir [2]. Sözügedən strategiya hazırda ardıcıl şəkildə icra olunmaqda və real nəticələr verməkdədir. Mövcud şəraitdə İAEƏ-də KOS-un inkişafı prioritet istiqamətlərdən biri kimi nəzərdən keçirilir. Bu baxımdan, institusional və iqtisadi təşəbbüslərlə yanaşı, elmi təminatın formalaşdırılması və bu sahənin inkişafına yönəlmiş strategiyaların hazırlanması xüsusi aktuallıq daşıyır.

İAEƏ-də iqtisadi potensialından səmərəli istifadə edilməsi və daha az maliyyə resursları ilə KOS-un inkişafına nail olunması strateji əhəmiyyət daşıyır. Odur ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOS-un inkişafına yönəlmiş iqtisadi mexanizmlər formalaşdırılmaqdadır.

Məlumdur ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ixtisaslaşma prosesləri məhsul istehsalı və xidmət sahələrinin

---

[1] "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü" haqqında Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021 – ci il tarixli Fərmanı.

[2] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı

inkişafına birbaşa təsir göstərir. Bu baxımdan, İAEƏ-nin ixtisaslaşma istiqamətlərinə uyğun olaraq zəruri institusional qurumların yaradılması və fəaliyyət göstərən təsərrüfat subyektlərinin dövlət dəstəyi ilə inkişaf etdirilməsi xüsusi aktuallıq kəsb edir.

İAEƏ-də KOS-un inkişafı üçün ilk növbədə istehsal və xidmət yönümlü sahibkarlığın genişləndirilməsi, habelə bu ərazilərə məqsədyönlü investisiya qoyuluşlarının təşviq edilməsi zəruridir. Ərazilərin iqtisadi dirçəlişi və əhalinin daimi məskunlaşmasının təmin olunması üçün öncə həmin torpaqların mina və digər təhlükəli qalıqlardan tam təmizlənməsi və təhlükəsiz mühitin yaradılması əsas şərtlərdən biri hesab olunur. Bununla yanaşı, regionda dayanıqlı inkişafın təmin edilməsi üçün infrastruktur sistemlərinin qurulması və təhlükəsizliyin təmin edilməsi vacib amillərdəndir.

Əhalinin davamlı şəkildə məskunlaşdığı şəraitdə gəlirlərin təmin olunması və məşğulluğun formalaşmasında KOS-un mövcud tələblərə uyğun şəkildə inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu isə ilk növbədə kənd təsərrüfatında fərdi sahibkarlığın, istehsal və xidmət kooperativlərinin yaradılmasını, turizm sahəsində mövcud potensialdan səmərəli istifadəni, iri müəssisələrlə yanaşı aqrar və kənd turizminin də inkişafına əlverişli şəraitin yaradılmasını tələb edir.

Sahibkarlıq subyektləri həm daxili bazarların əmtəə və xidmətlərlə təminatında, həm də istehsal olunan məhsulların xarici bazarlara çıxarılmasında mühüm rol oynamaq potensialına malikdirlər. Bu baxımdan onların rəqabətqabiliyyətliliyinin artırılması ölkə iqtisadiyyatının şaxələndirilməsi və dayanıqlığının təmin edilməsi baxımından strateji əhəmiyyətə malikdir. Qeyd edilən bütün bu amillər İAEƏ-də KOS-un formalaşdırılması və inkişaf istiqamətlərinin kompleks elmi təhlilini zəruri edir və bu məsələnin dissertasiya səviyyəsində sistemli şəkildə araşdırılmasını şərtləndirir.

Qeyd edək ki, 2021-ci ilin əvvəllərindən etibarən İAEƏ -də iqtisadiyyatın bərpası və bu regionda infrastrukturun inkişafı istiqamətində genişmiqyaslı müzakirələr və müxtəlif elmi tədbirlər həyata keçirilmiş, bu ərazilərin milli iqtisadiyyata reinteqrasiyası və dayanıqlı inkişafının təmin edilməsi məqsədilə respublikamızın bir sıra tanınmış iqtisadçı alimləri tərəfindən mühüm tədqiqat işləri aparılmışdır. Bu tədqiqatlar sırasında Z.Ə.Səmədzadə, A.F.Musayev,

E.R.İbrahimov, E.A.Quliyev, İ.H.İbrahimov, B.X.Ataşov, A.F.Abbasov, N.Müzəffərli, S.İ.Vəliyeva, A.H.Vəliyev, E.Ə.İbrahimov, F.F.Fikrətzadə və digər alimlərin İAEƏ-in iqtisadi inkişaf potensialına dair dəyərli elmi araşdırmaları xüsusi qeyd edilməlidir. Sözügedən tədqiqatlarda regionun iqtisadi resurslarının səmərəli istifadəsi, infrastrukturun yenidən qurulması və ümumi iqtisadi fəallığın təşviqi kimi aktual məsələlər əhatə olunmuşdur.

Bununla yanaşı, KOS-un inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə Z.N. Bosaeva, B.İ. Blinov, A.V. Busıqin, E.İ. Kartaşova, N.V. Kondrakov və digər xarici iqtisadçıların elmi əsərləri təhlil olunmuşdur. Dissertasiya tədqiqatı həm yerli, həm də beynəlxalq mütəxəssislərin elmi ideyalarına əsaslansa da, İAEƏ-də məhz kiçik və orta sahibkarlığın formalaşması və inkişafı məsələsi üzrə sistemli və kompleks şəkildə aparılmış hər hansı əsaslı tədqiqat praktik olaraq mövcud deyil. Nəticə etibarilə, bu dissertasiya işi mövzunun aktual elmi-nəzəri aspektlərini əhatə etməklə yanaşı, həm də praktiki baxımdan regionun sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun şəkildə kiçik və orta sahibkarlığın təşəkkülü və dəstəklənməsi istiqamətində kompleks tədqiqat aparılmasının vacibliyini ortaya qoyur.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqatın obyekti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kiçik və orta sahibkarlıq fəaliyyətidir. Tədqiqatın predmeti isə İAEƏ çərçivəsində kənd təsərrüfatı, emal sənayesi və turizm sektorlarında KOS-ların formalaşması və inkişaf qanunauyğunluqlarının araşdırılmasıdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi İAEƏ-də KOS-un formalaşmasının elmi-nəzəri əsaslarını araşdırmaq, regionda müxtəlif təsərrüfat subyektlərinin yaradılması imkanlarını təhlil etmək və KOS-un inkişafını təşviq edən iqtisadi mexanizmlərin formalaşdırılması üçün elmi cəhətdən əsaslandırılmış tövsiyələr hazırlamaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- yeni iqtisadi şəraitdə KOS-un inkişafını şərtləndirən amillər araşdırılmışdır;
- İAEƏ-də KOS-un formalaşdırılması və inkişafının elmi nəzəri əsasları işlənib hazırlanmışdır;

- KOS-un inkişafında dünya təcrübəsi və ondan istifadə imkanları tədqiq edilmişdir;
- Qarabağ iqtisadi rayonunda KOS-un inkişafının iqtisadi - təşkilati mexanizmləri təhlil edilmişdir;
- Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi təşkilatı mexanizmlərin ixtisaslaşma və kooperativlərin formalaşdırılmasına təsiri araşdırılmışdır;
- İAEƏ-də istehsal sahələrinin formalaşdırılması istiqamətləri müəyyənləşdirilmişdir;
- İAEƏ-də xidmət sahibkarlığının formalaşdırılması və inkişaf istiqamətləri ilə bağlı elmi cəhətlərdən əsaslandırılmış təkliflər işlənib hazırlanmışdır;
- İAEƏ-də KOS-un elmi təminatı və kadr potensialının yaxşılaşdırılması istiqamətləri müəyyən olunmuşdur.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı müxtəlif üsullardan, o cümlədən müşahidə, müqayisə, təhlil, analitik ümumiləşdirmə və digər iqtisadi - statistik üsullardan istifadə edilmişdir. Tədqiqat boyu Azərbaycan Respublikası Nazirlər Kabinetinin, İqtisadiyyat Nazirliyinin, Dövlət Statistika Komitəsinin və Kənd Təsərrüfatı Nazirliyinin hesabatları, habelə yerli və beynəlxalq iqtisadçıların bu sahədə gördüyü işlər, materiallar və elmi tədqiqat institutlarının hesabatlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiənin əsaslandığı əsas məqamlar aşağıdakılardır:

- KOS-un inkişaf etdirilməsinin iqtisadi sistemdə rolunun müəyyənləşdirilməsi, bu təsərrüfat subyektlərinin inkişaf etdirilməsinin iqtisadiyyatın rəqabət qabiliyyətinin formaşdırılmasına təsirinin əsaslandırılması zərurəti yaranmışdır;
- İAEƏ-də kənd təsərrüfatında daha çox hansı sahibkarlığın formalaşdırılmasının üstünlüklərinin müəyyənləşdirilməsinə ehtiyac vardır;
- İAEƏ-də KOS-un inkişaf etdirilməsinin zəruri şərtlərindən biri kimi dünya təcrübəsi və ölkəmizdəki təcrübə əsasında aqrar islahatıların və torpaq islahatlarının aparılması ilə bağlı məsələlər həll olunmalıdır;

- İAEƏ-də KOS-un inkişaf etdirilməsi üçün ölkənin milli iqtisadiyyatı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarının reinteqrasiya məsələlərini prioritet cəhətləri müəyyənləşdirilməlidir;
- İAEƏ-də KOS-un inkişaf etdirilməsinin dayanıqlı məskunlaşma və məşğulluğun təmin edilməsinə təsirinin araşdırılmasına xüsusi diqqət yetirilməlidir;
- İAEƏ-də KOS-un inkişaf etdirilməsində kənd təsərrüfatı və emal müəssisələri arasında inteqrasiya münasibətlərinin səmərəli və optimal mexanizmlərinin və elmi-kadr təminatının formalaşdırılmasına ehtiyac duyulur;
- İAEƏ-də KOS-un inkişaf etdirilməsi ilə bağlı xidmət sahibkarlığının inkişaf etdirilməsinə və adı çəkilən sahibkarlıq qurumları arasında inteqrasiya münasibətlərinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- İAEƏ-də KOS-un inkişaf etdirilməsi ilə bağlı mövcud sosial-iqtisadi reallıqlar nəzərə alınmaqla prioritet fəaliyyət sahələri elmi əsaslarla müəyyən edilmişdir;
- İAEƏ-də KOS-un inkişaf perspektivləri qiymətləndirilmiş, bu prosesin üstünlükləri, mövcud çatışmazlıqları və potensial təhdidləri sistemli şəkildə təhlil olunmuş, sahibkarlığın inkişafına mənfi təsir göstərən amillər konkretləşdirilmiş və onların neytrallaşdırılması üzrə nəzərə alınmalı istiqamətlər müəyyənləşdirilmişdir;
- İAEƏ-də KOS-un inkişaf etdirilməsinin ilkin zəruri şərtləri kimi ərazilərin təhlükəsizliyinin təmin olunması, sosial-iqtisadi və nəqliyyat infrastrukturunun formalaşdırılması, eləcə də əhalinin dayanıqlı məskunlaşması kimi əsas amillər ön plana çıxarılmışdır;
- beynəlxalq təcrübədə tətbiq olunan KOS dəstək mexanizmləri təhlil olunaraq, İAEƏ-nin təbii-iqtisadi xüsusiyyətləri kontekstində uyğunlaşdırılma imkanları əsaslandırılmış və region üçün müqayisəli üstünlüklər baxımından uyğunlaşması məqsədilə elmi-praktiki təkliflər irəli sürülmüşdür;

- İAEƏ-də fəaliyyət göstərəcək KOS-ların rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində dövlətin tənzimləyici rolu və dəstək mexanizmləri (o cümlədən subsidiyalar, güzəştli kreditlər, vergi güzəştləri və s.) müəyyənləşdirilmiş və onların funksional səmərəliliyi baxımından qiymətləndirilməsi aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyətinə aşağıdakıları aid etmək olar:

- münaqişədən sonra azad olunmuş ərazilərdə KOS - un mövcud vəziyyəti, onların inkişafı üçün zəruri amillərin təyin olunması;
- bu ərazilərdə iqtisadiyyatın bərpası və regional inkişaf səviyyəsi haqqında fikirlərin genişləndirilməsi;
- İAEƏ-də istehsal sahələri və xidmət sahibkarlığının inkişaf istiqamətlərinin təyin olunması;
- ixtisaslaşma və kooperativləşmə proseslərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda təsərrüfat mexanizminə təsirlərinin qiymətləndirilməsi.

Tədqiqatın praktiki əhəmiyyəti araşdırmanın yekununda əldə olunan nəticələr, təklif olunan tövsiyələrlə birlikdə İAEƏ-də iqtisadi canlanmaya əhəmiyyətli töhfə verə bilər. O, həmçinin KOS-ların inkişafına kömək edə bilər, regionda davamlı məskunlaşma və məşğulluğu dəstəkləyə bilər və bu sahədə gələcək dövlət proqramlarının formalaşdırılması və icrası üçün dəyərli mənbə rolunu oynaya bilər.

**Aprobasiyası və tətbiqi.** Disertasiyasının əsas müddəaları, nəticələr və tədqiqatın sonunda qeyd olunmuş təklifləri AR Prezidenti yanında Ali Attestasiya Komisiyyası tərəfindən tövsiyə olunan jurnallarda, həmçinin konfrans tezis və məruzələrində işıqlandırılmışdır. Ümumilikdə 10 məqalə və 4 tezis dərc edilmişdir. Ondan 1 məqalə və 1 tezis xaricdə çap olunmuşdur.

Tədqiqatın əsas müddəaları "İşğaldan azad edilmiş ərazilərdə kiçik və orta sahibkarlıq arasında yaranmış rəqabət qabiliyyətinin ölçülməsi" (Bakı, 2024), "Направления обеспечения финансового доступа для МСП, действующих на освобожденных территориях" (Москва, 2024), "İşğaldan azad edilmiş ərazilərdə kiçik və orta sahibkarlığın formalaşdırılması və inkişaf istiqamətləri" (Bakı, 2025) adlı tezislər konfrans materiallarında təqdim olunur.

Bununla yanaşı, tədqiqat mövzusuna dair iddiaçının “Azərbaycanda əlverişli biznes mühitinin təmin olunması və biznesin idarə olunmasının konseptual əsasları” (Bakı, 2020), “Kiçik və orta sahibkarlığın iqtisadi mexanizmi və onun tərkib elementlərinin formalaşdırılmasının bəzi məsələləri” (Bakı, 2023), “Kiçik və orta sahibkarlığın inkişafının bəzi nəzəri-metodoloji məsələləri” (Bakı, 2023), “Некоторые вопросы формирования конкурентоспособности малого и среднего предпринматльства в современных условиях” (Москва, 2023), “Qarabağ iqtisadi zonasında kiçik və orta sahibkarlığın inkişafı üçün vergi güzəştlərinin və preferensiyaların tətbiqi” (Bakı, 2024) adlı elmi məqalələri nüfuzlu jurnallarda çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Biznes Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi, giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 14282 işarə, birinci fəsil 93800 işarə, ikinci fəsil 68321 işarə, üçüncü fəsil 66512 işarə, nəticə 7027 işarə, istifadə edilmiş ədəbiyyat siyahısı 20150 işarə, təşkil edir. Dissertasiya işi cədvəllər, sxemlər, qrafiklər, diaqramlar və ədəbiyyat siyahısı istisna olmaqla dissertasiya işi 249942 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Giriş”** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, tədqiqatın obyekti və predmeti, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və s. məsələlər öz əksini tapmışdır.

Dissertasiya işinin birinci fəsli “**Kiçik və orta sahibkarlığın (KOS) formalaşdırılmasının elmi-nəzəri əsasları” adlanır.** Bu fəsildə yeni iqtisadi şəraitdə KOS-un inkişafını şərtləndirən amillər, KOS-un inkişafında dünya təcrübəsi və ondan istifadə, İAEƏ-də KOS-un formalaşdırılması və inkişafının elmi nəzəri və praktiki əsasları tədqiq edilir. Qeyd edilir ki, KOS-un inkişaf etdirilməsi bazar

iqtisadiyyatının formalaşdırılmasında və davamlı inkişafının təmin edilməsində əhəmiyyətli vasitələrdən biri hesab edilir. KOS-un formalaşması və inkişaf etdirilməsi cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərin inkişafı ilə də sıx bağlıdır. Bu inkişaf bazar iqtisadiyyatının əsasını təşkil edən xüsusi mülkiyyətin təzahürlərindən doğur. Bütün bunlar isə, cəmiyyətdə və iqtisadiyyatın bütün sahələrində KOS-un inkişafını səciyyələndirən ən mühüm cəhətlərdən biri hesab edilir.

Dissertasiyada qeyd edilir ki, inkişaf etmiş ölkələrin praktikası göstərir ki, KOS-un təşəkkül tapması cəmiyyətin özünəməxsus spesifik xüsusiyyətlərindən və eləcə də ölkələrin tarixi şəraitindən də bilavasitə asılıdır. Bazar iqtisadiyyatı əsasında inkişaf etmiş ölkələrdə KOS bir qayda olaraq tarixi ənənələrə, insanların vərdişlərinə və eləcə də iqtisadiyyatın ixtisaslaşma istiqamətinə müvafiq olaraq real həyata keçirilir. KOS cəmiyyətdə və iqtisadiyyatda mövcud olan sosial problemlərin həllində əhəmiyyətli rol oynayır. Bu isə onunla bağlıdır ki, iqtisadiyyatın müxtəlif sahələrində KOS-un inkişafı son nəticədə əhali məşğulluğunun təmin edilməsinə, işsizliyin səviyyəsinin aşağı salınmasına gətirib çıxarır. KOS-un inkişafı üçün ən mühüm səciyyəvi cəhətlərdən biri onun azad rəqabət mühitində baş verən dəyişikliklərə kifayət qədər çevik reaksiya göstərmək iqtidarındadır. Bundan əlavə, KOS-un qurulması iri sahibkarlıq fəaliyyəti ilə müqayisədə o qədər də irihəcmli investisiya tələb etmir. Bütün bunlar KOS-un inkişafı üçün üstünlükləri səciyyələndirir.

KOS-un formalaşması ilə bağlı xarakterik xüsusiyyətləri təhlil edərkən belə qənaətə gəlmək olar ki, ötən əsrin 80-ci illərinin sonlarından etibarən keçmiş ittifaqda baş verən mərkəzdən qaçmaq meyilləri təbii ki, respublikanın iqtisadiyyatına əhəmiyyətli təsir göstərmişdir. Maddi-texniki təchizatın əvvəlki səviyyədə olmaması, maliyyə təminatının zəifləməsi, ötən əsrin 80-ci illərinin sonu-90-cı illərin əvvəlləri üçün keçmiş ittifaq iqtisadiyyatının səciyyəvi cəhətlərindən idi. Həmin dövrdə iri müəssisələrin fəaliyyəti demək olar ki, nəzərəçarpacaq dərəcədə zəifləyirdi. Məhz belə bir şəraitdə kiçik və orta sahibkarlığı həmin dövr üçün səciyyələndirən kooperativlər formalaşmağa başladı. Həmin kooperativlər daxili bazarda məhsulların təklifini bu və ya digər şəkildə həyata keçirirdi.

Nəzərə almaq lazımdır ki, həmin dövr üçün iqtisadiyyatda nəzarətsizlik və intizamsızlıq hallarının güclənməsi, bir sıra hallarda həmin kooperativlərin dövlət müəssisələrindən məhsulları alaraq nisbətən sərfəli qiymətə bazarda reallaşdırılmasına da gətirib çıxarırdı.

Araşdırmalar göstərirdi ki, sahibkarlığın dinamik inkişafının təmin edilməsi üçün daha kompleksli, sistemli yanaşma olmalı və bunun üçün isə özünü doğrultmuş iqtisadi mexanizmlər tətbiq edilməlidir. KOS-un formalaşması və inkişafı o zaman özünü doğrulda və dünya təcrübəsində qlobal bazarlara çıxışı təmin edilə bilər ki, KOS rəqabət qabiliyyətli fəaliyyəti özündə birləşdirsin. KOS-un rəqabət qabiliyyətinin yüksəldilməsi və bu baxımdan KOS-un rəqabət qabiliyyətinə təsir göstərən daxili və xarici mühit amillərinin zərərli təmayüllərinin aradan qaldırılması da, məhz dövlətin iqtisadi siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edilir.

Tədqiqat işində göstərilir ki, qloballaşma şəraitində KOS-un səciyyəvi xüsusiyyətləri onun yerinə yetirdiyi funksiyalar vasitəsilə özünü təzahür etdirir. Cəmiyyətin sosial-iqtisadi həyatında qloballaşma prosesi dərinləşdikcə KOS-un yerinə yetirdiyi funksiyalar da öz sərhədlərini aşır iqtisadiyyatın inkişafını və sosial mühitin fəallaşmasına təsir göstərir. Fikrimizcə, KOS-un yerinə yetirdiyi funksiyalar müasir qloballaşan dünyada əsas etibarilə sosial, iqtisadi, rəqabət, resurs və institusional funksiyaları yerinə yetirir. KOS-un iqtisadi funksiyaları bazar iqtisadiyyatının inkişaf etdirilməsinə istiqamətlənir, mülkiyyətin özəlləşdirilməsini, xüsusi mülkiyyətin təzahürünü nəzərdə tutur. KOS-un iqtisadi funksiyaları kifayət qədər geniş xarakter daşıyır. Belə ki, qloballaşma prosesinin dərinləşməsi iqtisadiyyatın inkişafında təhlükəsizlik meyillərinin artırılmasını da obyektiv zərurətə çevirir.

Beləliklə, dünya təcrübəsində KOS-un fəaliyyəti ilə bağlı prosesləri ümumiləşdirərək hesab etmək olar ki, iri və kiçik biznesin təsərrüfatçılıq subyektlərinin özünəməxsus güclü və zəif tərəfləri mövcuddur bu baxımdan KOS-un və iri sahibkarlıq qurumlarının güclü və zəif cəhətləri cədvəl 1-də öz əksini tapmışdır.

Avropa Birliyinə daxil olan ölkələrdə, eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələrdə KOS emal sənayesində daha geniş xüsusi çəkiyə malikdir.

**Cədvəl 1.**

**KOS-un və iri sahibkarlıq qurumlarının güclü və zəif cəhətləri**

| Subyektlər | Güclü tərəflər | Zəif tərəflər |
|---|---|---|
| İri sahibkarlıq qurumları | - Daxili və xarici mühitdə dəyişən şəraitə çevik reaksiya qabiliyyəti<br>- Elmi-texniki nailiyyətlərin (ETT) tətbiqi imkanlarının geniş olması<br>- Məhsul istehsalına çəkilən xərcləri optimallaşdırmaq imkanları | - İqtisadi səmərəliliyin artırılması ilə bağlı daxili stimulların zəif olması<br>- Sosial marketinq və istehlakçılarla çevik qarşılıqlı əlaqədə bürokratik məhdudiyyətlər<br>- İdarəetmənin təsərrüfat fəaliyyətinin həcminin artmasına təsiri məhdud ola bilər |
| KOS | - Qeyri-stabil və böhranlı situasiyalarda çevik fəaliyyət imkanları<br>- Ənənəvi və ucuz resurslardan istifadə ilə yüksək rentabellik imkanı<br>- Həssas əhali təbəqələrinin işlə təmin edilməsi və işsizliyin qarşısının alınması imkanları<br>- Daxili bazarın məhsul və xidmətlərlə zənginləşməsində rol<br>- İri transmilli şirkətlərlə inteqrasiya nəticəsində ixrac imkanlarının genişlənməsi<br>- Cəmiyyətdə orta təbəqənin formalaşmasına təsir | - Kapital resurslarına çıxış imkanlarının məhdudluğu<br>- Bəzi hallarda idarəetmənin struktur və sistem baxımından çevik olmaması<br>- Rəqabət qabiliyyətli resurslara məhdud çıxış<br>- Elmi-texniki nailiyyətlərin tətbiqi imkanlarının məhdudluğu. |

*Mənbə: Cədvəl müəllif tərəfindən hazırlanmışdır.*

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nizamnaməsində qeyd edilir ki, mikro sahibkarlıq müəssisələrində işçilərin sayı 19 nəfər, kiçik sahibkarlıq subyektlərində işçilərin sayı 20-90 nəfər, orta müəssisələrdə çalışanların sayı 100-499 nəfər, iri müəssisələrdə çalışan işçilərin sayı isə 500 nəfərdən yüksək olması nəzərdə tutulur.

Qeyd edilir ki, Azərbaycan Respublikasında da sahibkarlıq subyektlərinin ölçüləri “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il

tarixli qərarı ilə müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasında KOS-un ölçüləri cədvəl 2-də göstərilmişdir.

**Cədvəl 2.**

**Azərbaycan Respublikasında KOS-n ölçüləri[3]**

| | **İşçilərin sayı** | **Ümumi məhsul istehsalı** |
|---|---|---|
| Mikro müəssisələr | 1-10 | 200 min manatdan az və ya bərabər |
| Kiçik müəssisələr | 11-50 | 200 min manatdan çox, 3 milyon manatdan az və ya bərabər |
| Orta sahibkarlıq | 51-250 | 3 milyon manatdan çox, 30 milyon manatdan az və ya bərabər |

Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlıq subyektlərində həm işçilərin sayı və bu təsərrüfa subyektlərinin gəlirləri Avropa ölkələri ilə müqayisədə aşağıdır.

Prof. İ.H.İbrahimovun fikrincə, İAEƏ-də sahibkarlığın formalaşması prosesi məskunlaşma ilə sıx əlaqəlidir və doğma torpaqlarına qayıdan bitkiçilik, heyvandarlıq və xidmət sahəsində fəaliyyət göstərən şəxslərin dəstəklənməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, artıq heyvandarlıq və arıçılıqla məşğul olanların geri dönüşü regionda aqrar fəaliyyətin bərpasına təkan verməkdədir. Müəllif haqlı olaraq qeyd edir ki, dövlət aqrar inkişaf mərkəzləri bu istiqamətdə kompleks tədbirlər həyata keçirməlidirlər. O, həmçinin regionda sahibkarlığın dayanıqlı inkişafı üçün istehsal və xidmət kooperativlərinin yaradılmasını, güzəştli kreditlərin verilməsini, infrastrukturun inkişafını və aqroparkların formalaşdırılmasını vacib hesab edir[4].

İAEƏ-də KOS-un inkişaf etdirilməsi mühüm strateji əhəmiyyət kəsb edir. İAEƏ-də KOS-un inkişaf etdirilməsinin strateji əhəmiyyəti ilk növbədə əhalinin dayanıqlı məskunlaşmasına əlverişli şərait yaradılması ilə bağlı olmaqla yanaşı, eyni zamanda həmin ərazilərdə

---

[3] Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" nın verilməsi haqqında 21 dekabr 2018 – ci iltarixli 556№-li Qərarı

[4] İbrahimov, İ.H. Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri, / İ.H. İbrahimov, Monoqrafiya, Bakı, "Kooperasiya" nəşriyyatı - 2022. 240 s.

iqtisadi artımın sürətləndirilməsinə və eləcə də əhalinin həssas təbəqələrinin bu sektorda çalışmaqla özlərinin məşğulluğunun təmin etmələrinə geniş imkanlar aça bilər. İAEƏ-də KOS-un inkişaf etdirilməsi nəqliyyat infrastrukturlarının yaradılmasından da əhəmiyyətli dərəcədə asılıdır ki, bu istiqamətdə sürətli işlər davam etdirilir. Belə ki, ölkəmizdə artıq 8 beynəlxalq hava limanı mövcuddur ki onlardan ikisi işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərir. 2021-ci ildə Qarabağın hava qapısı hesab olunan Fizuli Beynəlxalq Hava Limanı və Zəngilan Beynəlxalq Hava Limanı istifadəyə verilmişdir. Bu hava limanlarında yaradılan şərait öz növbəsində beynəlxalq standartlara uyğun olaraq uçuşların həyata keçirilməsinə imkan verir. Hazırda üçüncü hava limanı olaraq Laçın Beynəlxalq Hava Limanı da tikilməkdədir. İAEƏ-də KOS-un inkişaf edilməsi ilə bağlı gerçəkləşdirilən proseslərin səciyyəvi cəhətlərindən biri onda ibarətdir ki, təhlükəsizliyinin təmin edilməsi ərazilərin minalardan təmizlənməsi ilə paralel olaraq əhalinin həmin ərazilərə qaytarılması və eləcə də həmin ərazilərdə sahibkarlığın inkişaf etirilməsi istiqamətində zəruri tədbirlər gerçəkləşdirilir. 2022-ci ildə ərazilər minalardan və partlamamış hərbi sursatlardan təmizlənmə işlərinə paralel olaraq əkin dövriyyəsinə cəlb edilib. Ötən ilin yayında 5550 hektara yaxın ərazidə buğda və arpa əkilib, 330 minə yaxın xırda buynuzlu, 24 minə yaxın iri buynuzlu heyvan, 61 min arı ailəsi bu ərazilərə köçürülüb.

Dissertasiya işinin ikinci fəsli **"İAEƏ-də KOS-un formalaşdırılması imkanlarının təhlili" adlanır.** Bu fəsildə Qarabağ iqtisadi rayonunda KOS-un inkişafının iqtisadi təşkilati mexanizmləri, Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi təsərrüfat mexanizminə ixtisaslaşma və kooperativləşmənin təsiri tədqiq edilir və KOS-un formalaşması və inkişaf istiqamətləri statistik təhlil olunur. Qeyd edilir ki, İAEƏ-in ölkə iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi baxımından yeni iqtisadi zonalar bölgüsü ilə bağlı ölkə başçısının 2021-ci ilin 7 iyun tarixində imzaladığı Fərmanın sosial-iqtisadi əhəmiyyəti vardır. Həmin fərmana uyğun olaraq ölkədə iqtisadi zonaların yenidən işlənmiş təsnifatı müəyyən edilib. Fərmanda deyilir ki, "*Hazırda azad olunmuş torpaqların bərpası, onların gələcək inkişafının təmin edilməsi, əsas infrastrukturun yaradılması və*

*əhalinin öz doğma yurdlarına qayıtmasının asanlaşdırılması istiqamətində mühüm işlər görülür. Bu torpaqların mövcud potensialından, mineral ehtiyatlarından və turizm sahəsi ilə bağlı imkanlarından səmərəli şəkildə yararlanmaqla dayanıqlı inkişafın əldə olunmasına yönəlmiş bütün tədbirlərin bir proqram çərçivəsində həyata keçirilməsinin zəruriliyi bu torpaqların iqtisadi zonalara bölünməsinin yenidən qiymətləndirilməsini tələb edir"* [5]. Bu sərəncama əsasən respublikamızda 14 iqtisadi zona yaradılmışdır ki, onlardan biri də Qarabağ iqtisadi rayonudur. Bu rayonun ərazisinə rayonun mərkəzi şəhəri hesab olunan Xankəndi şəhəri əhəmiyyətli kənd təsərrüfatı rayonlarından olan Ağcabədi, mədəni irsi ilə tanınan Ağdam, coğrafi və strateji əhəmiyyətli Bərdə və Füzuli, Xocalı, təbii resurslarla zəngin Xocavənd, mədəniyyət beşiyi olan Şuşa və həmçinin Tərtər rayonları daxildir.

Dissertasiyada iqtisadi rayonlar, inzibati vahidləri və iqtisadi fəaliyyət növləri üzrə yeni qeydə alınmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vəziyyəti təhlil edilir. Sahibkarlıq subyektlərinin sayı cədvəl 3-də verilmişdir.

2022-ci ildə müəssisələrin sayı 121737-dən 2023-cü ildə 125159-a qədər artmışdır. Bu artım əsasən mikro müəssisələrin hesabına baş vermişdir – onların sayı 121308-dən 124247-yə qədər artaraq sahibkarlığın strukturunda dominant mövqeyini qoruyub saxlamışdır. Kiçik müəssisələrin sayı 363-dən 775-ə, orta müəssisələrin sayı isə 66-dan 137-yə qədər yüksəlmişdir ki, bu da iqtisadi fəaliyyət formalarının genişlənməsini və KOS-un təşkilati strukturunda tədricən şaxələnməni əks etdirir.

Ümumilikdə, 2022 - 2023-cü illərdə ölkə üzrə KOS-un inkişafında müsbət meyillər müşahidə olunmuş, lakin Qarabağ iqtisadi rayonunda artımın əsasən mikro səviyyəli müəssisələr hesabına formalaşdığı görünməkdədir. Kiçik və orta müəssisələrin payının zəif olması isə regionda sahibkarlığın təşkilati və institusional əsaslarının hələ tam formalaşmadığını göstərir. Bu baxımdan, Qarabağ iqtisadi rayonunda KOS-un inkişafını stimullaşdırmaq üçün dövlət dəstəyinin

---

[5] Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü" haqqında Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021 – ci il tarixli Fərmanı

gücləndirilməsi, klaster və kooperasiya modellərinin tətbiqi, eləcə də biznes infrastrukturlarının yaradılması zəruri istiqamətlər kimi qiymətləndirilə bilər.

**Cədvəl 3.**

**İqtisadi rayonlar inzibati ərazi vahidləri və iqtisadi fəaliyyət növləri üzrə yeni qeydə alınmış mikro kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| | 2022 | | | | 2023 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən | | | Cəmi | O cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Ölkə üzrə cəmi | 121737 | 121308 | 363 | 66 | 125159 | 124247 | 775 | 137 |
| Qarabağ iqtisadi rayonu, cəmi | 6399 | 6386 | 7 | 6 | 6857 | 6848 | 7 | 2 |
| Xankəndi şəhəri | - | - | - | - | 2 | 2 | - | - |
| Ağcabədi | 1308 | 1305 | 1 | 2 | 1548 | 1548 | - | - |
| Ağdam | 786 | 785 | 1 | - | 1007 | 1006 | 1 | - |
| Bərdə | 2603 | 2602 | 1 | - | 2593 | 2590 | 2 | 1 |
| Füzuli | 635 | 634 | - | 1 | 608 | 606 | 2 | - |
| Xocalı | 8 | 8 | - | - | 29 | 29 | - | - |
| Xocavənd | 76 | 76 | - | - | 57 | 57 | - | - |
| Şuşa | 37 | 36 | 1 | - | 66 | 64 | 1 | 1 |
| Tərtər | 946 | 940 | 3 | 3 | 647 | 649 | 1 | - |

*Mənbə:https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2024.pd*

Azərbaycan Respublikasında və Qarabağ iqtisadi rayonunda iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərində məhsul buraxılışının həcmi cədvəl 4-də verilmişdir.

Məlumatların təhlili göstərir ki, 2022-2023-cü illərdə Azərbaycanda, o cümlədən Qarabağ iqtisadi rayonunda sahibkarlıq subyektlərinin məhsul buraxılışı artım meyli nümayiş etdirmişdir.

**Cədvəl 4.**

**Azərbaycan Respublikasında və Qarabağ iqtisadi rayonunda iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul buraxılışı (mln manatla)**

| | 2022 | | | | 2023 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən | | | Cəmi | O cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Ölkə üzrə ümumi həcm | 29003,3 | 11072,1 | 4714,9 | 13216,3 | 34743,1 | 12366,2 | 5778,4 | 16598,4 |
| Qarabağ iqtisadi rayonu-cəmi | 510,1 | 252,0 | 79,7 | 178,4 | 685,3 | 316,5 | 83,3 | 285,5 |
| Xankəndi şəhəri | - | - | - | - | | | | |
| Ağcabədi | 140,0 | 65,4 | 28,1 | 46,4 | 166,7 | 79,6 | 11,6 | 75,6 |
| Ağdam | 61,5 | 31,2 | 5,4 | 25,0 | 96,0 | 50,8 | 21,1 | 24,1 |
| Bərdə | 155,6 | 94,0 | 23,8 | 37,8 | 186,6 | 117,5 | 19,4 | 49,6 |
| Füzuli | 69,3 | 30,2 | 12,5 | 26,5 | 73,6 | 26,5 | 15,7 | 31,4 |
| Xocalı | - | 0,48 | - | - | - | 0,45 | - | 29,6 |
| Xocavənd | 3,1 | 2,4 | 0,65 | - | - | 1,4 | 0,88 | |
| Şuşa | - | 2,3 | 0,68 | - | 30,2 | 2,2 | 4,3 | 23,7 |
| Tərtər | 56,1 | 25,8 | 8,4 | 21,9 | 99,1 | 38,1 | 10,1 | 50,9 |

*Mənbə:https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2024.pd*

Ümumilikdə, təhlil göstərir ki, 2022 - 2023-cü illərdə həm ölkə üzrə, həm də Qarabağ iqtisadi rayonunda məhsul buraxılışının dinamik artımı müşahidə olunmuş, xüsusilə orta sahibkarlıq subyektlərinin rolu daha da güclənmişdir. Bu isə iqtisadi strukturda müsbət transformasiya proseslərinin baş verdiyini və sahibkarlığın davamlı inkişaf meyllərinin möhkəmləndiyini əks etdirir. Məhsul buraxılışının Qarabağ iqtisadi rayonunda KOS subyektlərində aqrar sahənin inkişafı ilə bağlı geniş imkanlar mövcuddur və həmin ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalı həyata keçirilir. Lakin bütün bunlara baxmayaraq kənd təsərrüfatı məhsullarının istehsalında gəlirliyin aşağı olması, yəni sahənin az gəlirliyi, kənd

təsərrüfatı məhsullarının qiymətlərinin sənaye məhsullarının qiymətləri ilə müqayisədə aşağı olması və digər bu kimi səbəblər KOS subyektlərində kənd təsərrüfatında məhsul buraxılışının ümumi həcminin digər sahələrlə, o cümlədən sənaye və ticarət sektorları ilə müqayisədə aşağı olmasına gətirib çıxarmışdır. Şərqi Zəngəzur iqtisadi rayonunda KOS-ların inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsi ilk növbədə təşviqə yönəldilməlidir. Dövlət Statistika Komitəsinin məlumatına görə, Şərqi Zəngəzur iqtisadi rayonunda fəaliyyət göstərən KOS-ların sayı 2022-ci ildəki 1845-dən 2023-cü ildə 1754-ə qədər azalıb[6]. Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar və inzibati vahidlər üzrə ərazi bölgüsü cədvəl 5-də öz əksini tapmışdır.

Şərqi Zəngəzur iqtisadi rayonunda aparılan struktur təhlil göstərir ki, yeni qeydiyyatdan keçən sahibkarlıq subyektlərinin böyük əksəriyyətini mikro müəssisələr təşkil edir (2022-ci ildə 620, 2023-cü ildə 924), bu da ümumi göstəricinin 98–99 faizinə bərabərdir. Kiçik və orta sahibkarlıq üzrə artım nisbətən zəif olsa da, bu meyil regionda peşəkar və institusional bizneslərin formalaşmaqda olduğunu göstərir.

**Cədvəl 5**

**Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə bölgüsü**

| | 2022 | | | | 2023 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən | | | Cəmi | O cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Ölkə üzrə cəmi | 121 737 | 121 308 | 363 | 66 | 125159 | 124247 | 775 | 137 |
| Şərqi Zəngəzur iqtisadi rayonu-cəmi | 625 | 620 | 4 | 1 | 933 | 924 | 6 | 3 |
| Cəbrayıl rayonu | 108 | 107 | 1 | - | 193 | 192 | 1 | - |
| Kəlbəcər rayonu | 76 | 76 | - | - | 154 | 154 | - | - |
| Qubadlı rayonu | 210 | 207 | 2 | 1 | 186 | 187 | 1 | - |
| Laçın rayonu | 170 | 169 | 1 | - | 279 | 273 | 4 | 2 |
| Zəngilan rayonu | 61 | 61 | - | - | 120 | 119 | - | 1 |

*Mənbə:https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2024.pd*

[6]https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/entrepreneurship_2024.pd

Rayonlar üzrə müqayisə göstərir ki, ən yüksək artım Laçın rayonunda (64,1%) və Cəbrayılda (79%) qeydə alınmış, Kəlbəcərdə göstərici iki dəfədən çox artmış, Zəngilanda isə artım 96,7 faiz təşkil etmişdir. Qubadlı rayonunda isə 11,4 faiz azalma müşahidə olunmuşdur. Bu dinamika məskunlaşma sürəti və iqtisadi fəaliyyətin bərpası ilə sıx bağlıdır.

Sahibkarlıq fəaliyyəti əsasən ticarət, nəqliyyat vasitələrinin təmiri və kənd təsərrüfatı sahələrində cəmləşir ki, bu da regionun iqtisadi strukturunun kənd təsərrüfatı yönümlü olduğunu təsdiqləyir. Ümumilikdə, 2022–2023-cü illərdə sahibkarlıq subyektlərinin kəskin artımı postmünaqişə dövründə iqtisadi fəallığın güclənməsini göstərir. Mikro sahibkarlığın aparıcı rolu və kiçik-orta müəssisələrin zəif payı qarşısında əsas vəzifə bu bazanı genişləndirərək daha dayanıqlı sahibkarlıq modelinin formalaşdırılmasıdır.

Təhlildən belə qənaətə gəlmək mümkün olar ki, Laçın, Qubadlı və Kəlbəcər rayonlarında sahibkarlıq subyektlərinin sayının çox olması ilk növbədə onunla bağlıdır ki, adı çəkilən rayonlara xüsusilə yay aylarında arı ailələrinin aparılması, eləcə də xırda və iri buynuzlu mal qaranın yaylaqlara aparılması prosesi baş verməkdədir.

Bu fəsildə qeyd edilir ki, İAEƏ-də, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında KOS formalaşmasının Azərbaycanın qeyri-neft sektorunun inkişafı və iqtisadi şaxələndirilməsində mühüm rol oynayır. Statistik təhlillər göstərir ki, bu ərazilərdə KOS-ların yaradılması həm iqtisadi, həm sosial, həm də institusional baxımdan əhəmiyyət kəsb edir. Belə nəticəyə gəlinir ki, iqtisadi cəhətdən yeni istehsal və xidmət sahələrinin yaranması, sosial baxımdan məşğulluğun artması və əhalinin daimi məskunlaşmasının təmin edilməsi, institusional baxımdan isə dövlət dəstəyi və rəqəmsallaşmanın təşviqi əsas istiqamətlərdir.

Tədqiqat nəticələrinə görə, bu regionlarda KOS-ların inkişafı üçün infrastruktur, təhsil, rəqəmsal texnologiyalar, maliyyə xidmətləri və logistika kimi sahələrə yönələn investisiyalar arasında ən yüksək pay (31%) rəqəmsal texnologiyaların payına düşür. Sorğu nəticələri göstərir ki, respondentlərin 61%-i dövlətin KOS-ların inkişafına dəstəyini tam uyğun hesab edir, 76%-i isə biznes kreditlərinə çıxış imkanlarında problemlərin mövcudluğunu təsdiqləyir.

Respondentlərin 84%-i güzəştli kreditlər və maliyyə proqramlarının KOS-ların inkişaf sürətinə birbaşa təsir etdiyini, 84%-i isə xarici investisiyaların yeni bazarlara çıxış imkanlarını artırdığını qeyd edib. Lizinq və faktorinq kimi qeyri-bank maliyyə alətlərinin KOS-ların istehsal avadanlıqlarını təkmilləşdirməyə şərait yaratdığını respondentlərin böyük hissəsi təsdiqləyir.

İnfrastrukturun, xüsusilə yol və nəqliyyat sisteminin bərpası, həmçinin enerji təminatının sabitləşməsi sahibkarların məhsul və xidmətlərini bazara çıxarma imkanlarını artırır. Empirik təhlil göstərir ki, hazırda mikro və kiçik sahibkarlıq subyektləri əsasən kənd təsərrüfatı və xidmət sahələrində fəaliyyət göstərir, lakin yaxın illərdə emal və turizm istiqamətlərində orta sahibkarlığın inkişafı gözlənilir.

Beləliklə, İAEƏ-də KOS-ların inkişafı iqtisadi diversifikasiyanın, sosial rifahın və regionların dayanıqlı inkişafının mühüm təminatçısı ola bilər. Aparılmış sorğuların nəticələri dövlət dəstəyinin, maliyyə əlçatanlığının və infrastrukturun bərpasının KOS sektorunun formalaşmasında həlledici rol oynadığını sübut edir.

Dissertasiya işinin üçüncü fəsli **"İAEƏ-də KOS-un iqtisadi mexanizminin formalaşdırılması istiqamətləri və inkişaf perspektivləri" adlanır.** Bu fəsildə İAEƏ-də istehsal və xidmət sahibkarlığının formalaşdırılması və inkişaf istiqamətləri, KOS-un elmi təminatı və kadr potensialının yaxşılaşdırılması istiqamətləri tədqiq edilir. Tədqiqatda qeyd edilir ki, İAEƏ-də KOS-un dəstəklənməsi tədbirləri istehsal sahələrinin inkişaf etdirilməsində və eləcə də onların iqtisadi mexanizmlərinin formalaşdırılmasında əhəmiyyətli rol oynaya bilər. KOS-a dövlət büdcəsindən verilən subsidiyalar, istərsə də sahibkarlığın inkişaf fondu vasitəsilə güzəştli kreditlərin verilməsi onların inkişafında sürətli irəliləmələrə əlverişli şərait yarada bilər ki, bütün bunlar isə İAEƏ-də dayanıqlı məskunlaşmanın təmin edilməsinə və əhalinin səmərəli məşğulluğunun qorunub saxlanılmasına geniş imkanlar aça bilər. Fikrimizcə güzəştli kreditlər və dövlət subsidiyaları İAEƏ-nin iqtisadi potensialının səmərəli istifadəsinə imkan verməklə KOS-un da inkişafına əlverişli şəraiti yarada bilər.

İAEƏ-də KOS-un inkişaf etdirilməsinin iqtisadi mexanizmləri güzəştli kreditləşməyə dövlətin regional proqramlarının işlənib

hazırlanmasına və tətbiqinə, eyni zamanda bu və ya digər sahələrin inkişafı ilə bağlı büdcə subsidiyalarına əsaslanmalıdır. Bundan əlavə, orta sahibkarlığın inkişafının dəstəklənməsi məqsədi ilə ailə təsərrüfatları birliyinin yaradılmasına, o cümlədən kənd təsərrüfatı və emalı kooperativlərinin yaradılmasına zəruri dəstək göstərilməlidir. Fikrimizcə kooperasiyaya könüllü daxil olan fərdi sahibkarlıq qurumlardan subsidiyaların həcmi fərdi sahibkarlarla müqayisədə daha yetərli şəkildə indeksləşdirilməlidir ki, bu da kooperasiya subyekti olan təsərrüfat qurumlarının stimullaşdırılmasına əlverişli şərait yarada bilər. Bununla əlaqədar İAEƏ-də sahibkarlığın inkişafı mexanizmlərinin formalaşması və regionların ixtisaslaşması, ixtisaslaşma proseslərinə uyğun xüsusi iqtisadi stimullaşma tədbirlərinin həyata keçirilməsi, aqrar sahənin emal sənayesi ilə inteqrasiyasının dövlət dəstəklənməsi təklif edilir. Bu baxımdan İAEƏ-də kənd təsərrüfatı və emal sənayesinin ixtisaslaşma istiqamətləri barədə prioritetlər müəyyən edilir və məqsədli proqramlar qəbul edilməsi təklif olunur. Hesab edilir ki, bu əhalinin məşğulluğu, məskunlaşması və gəlirlərinin artırılması, həmçinin "Böyük Qayıdışa dair birinci Dövlət Proqramı" baxımından əhəmiyyətli ola bilər.

İAEƏ-in iqtisadi potensialının təhlili göstərir ki, bu regionlarda kifayət qədər geniş xidmət sahibkarlığının inkişafına nail olmaq mümkündür. İAEƏ-də xidmət sektorunun rəngarəng və geniş olmasını səciyyələndirən həmin ərazilərin coğrafi və təbii iqlim xüsusiyyətləri hesab oluna bilər. İAEƏ-də ənənəvi xidmət sahibkarlıq ilə yanaşı, yeni mütərəqqi xidmət sahibkarlığının formalaşdırılmasına da nail olmaq mümkündür ki, bu da xidmətlər sektorundan daxil olmaların həcminin artmasına və eləcə də alternativ ixrac sektorunda İAEƏ-in payının yüksəlməsinə gətirib çıxara bilər.

Dissertasiyada İAEƏ-də xidmət sahibkarlığının ənənəvi və yeni xidmət sahibkarlığının formalaşmasının ehtiyatlardan istifadədə və insanların ehtiyaclarının ödənilməsində mühüm rolu araşdırılır. Xidmət sahibkarlığının formaları aşağıdakı sxemdə verilir.




**Sxem. Xidmət sahibkarlığının formaları**

*Mənbə: Sxem müəllif tərəfindən tərtib edilmişdir*

Qeyd edilir ki, turizmdən əldə edilən xarici valyuta gəlirləri sayəsində ödəniş balansına müsbət qatqı təmin edir və turizmin inkişafı ilə ölkənin milli iqtisadiyyatı üçün çox mühüm gəlir mənbəyinə çevrilir. Fikrimizcə, turizm sektoruna çəkilən xərclər əslində sabit xərclər kimi səciyyələnə bilər və onlar göstərilən xidmətlərin maya dəyərinin strukturunda uzun müddətli rol oynamaq iqtidarındadır. Bu baxımdan xüsusilə İAEƏ-də kənd turizminin və aqrar turizmin inkişaf etdirilməsi həmin ərazidə məskunlaşan əhalinin alternativ gəlir mənbəyinin mühüm tərkib hissəsi kimi çıxış edə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkənin sosial-iqtisadi inkişafında turizmin aparıcı sahələrindən biri kimi ön plana çıxır. Lakin bu potensialdan tam istifadə üçün aşağıdakı amillərin nəzərə alınması məqsədəuyğun hesab edilir:

- təhlükəsizlik və sabitliyin təmin edilməsi;
- əhalinin yenidən məskunlaşma səviyyəsinin yüksəldilməsi;

- müvafiq infrastrukturun yaradılması.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialının təsnifləşdirilmiş qiymətləndirilməsi göstərir ki, bu region yaxın gələcəkdə Azərbaycanın turizm sektorunda əsas inkişaf mərkəzinə çevrilə bilər.

İAEƏ-də xidmət sahibkarlığının inkişaf etdirilməsini stimullaşdırmaq bu sahədə KOS-un mövcud üstünlüklərindən istifadə etmək məqsədi ilə müəyyən tənzimləmə və stimullaşdırma tədbirlərinin gerçəkləşdirilməsinə də ehtiyac vardır. Bu baxımdan Azərbaycanın təbii inhisar sahələrində İAEƏ-in fəaliyyətini stimullaşdırmaq məqsədilə müxtəlif güzəştlərdən istifadə edilməsi sahənin inkişafına geniş imkanlar açardı.

İAEƏ-in elmi potensialının yüksəldilməsi, eləcə də regionun ixtisaslaşma istiqamətinə uyğun olaraq zəruri elmi potensialın və ixtisaslı kadrların formalaşdırılması məqsədilə dövlət tərəfindən zəruri tədbirlər də gerçəkləşdirilməkdədir. Bu tədbirlər ilk növbədə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair birinci Dövlət Proqramı"na uyğun olaraq İAEƏ-in yenidən qurulması və dayanıqlı inkişafın və həmin ərazilərə yüksək həyat səviyyəsinin təminatı üçün geniş miqyaslı bərpa- quruculuq işləri çərçivəsində reallaşdırılmaqdadır. Bu tədbirlər çərçivəsində "Qarabağ Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin 28 noyabr 2023-cü tarixli Sərəncamına uyğun olaraq işğaldan azad edilmiş Xankəndi şəhərində Qarabağ Universiteti yaradılmışdır[7].

Məlum olduğu kimi ictimai-iaşə sistemi, kafe və restoranlar xidmət sahibkarlığının ən mühüm tərkib elementlərindən biridir. İctimai-iaşə sektorunda fəaliyyət göstərən kafe və restoranlar xidmət sahibkarlığının ənənəvi sahələrindən olmaqla yanaşı turizm sahəsinin inkişafında, eləcə də regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində, regiona əlavə gəlir daxil olunmasında mühüm rola malikdir. Bu baxımdan İAEƏ-in potensialından istifadə edilməsi

---

[7] Qarabağ Universitetinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2023-cü il tarixli Sərəncamı, https://president.az/az/articles/view/62346

mühüm əhəmiyyət kəsb edir. Hesab edirik ki, İAEƏ-də xidmət sahibkarlığının, o cümlədən kafe və restoranlar şəbəkəsinin genişləndirilməsi rəqabəti artırmaqla bərabər keyfiyyət və qiymətlərin səviyyəsinin əlçatanlığına da əlverişli şərait yarada bilər.

**Beləliklə, tədqiqatı ümumiləşdirərək aşağıdakı nəticə və təklifləri müəyyən etmək olar**.

1. KOS sahibkarlığın mühüm tərkib hissəsini təşkil etməklə azad rəqabətə və iqtisadi azadlıqların təmin edilməsinə əsaslanan təsərrüfat fəaliyyətidir. KOS-un inkişaf etdirilməsi ilk növbədə əhali məşğulluğunun təmin edilməsinə və əhali gəlirlərinin artırılmasına xidmət edir.

2. 2020-ci il sentyabrın 27-dən etibarən 44 günlük müharibə, 2022-ci ilin sentyabrında isə 24 saatdan az bir vaxtda antiterror əməliyyatları nəticəsində Azərbaycan Respublikasının 30 ilə yaxın zaman kəsiyində erməni qəsbkarlarının işğal altında olmuş əzəli torpaqları qaytarılmış, Azərbaycan Respublikasının siyasi suverenliyi bərpa edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 07 iyun 2021-ci il tarixli Azərbaycan Respublikasının iqtisadi rayonlarının yenidən bölgüsü haqqında fərmanına müvafiq olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır. Bu iqtisadi rayonlarda obyektiv səbəblər üzündən torpaq islahatları və aqrar islahatlar aparılmamışdır. Odur ki, KOS-un inkişaf etdirilməsi ilə bağlı ən mühüm şərtlərdən biri də təcrübələrə əsaslanaraq torpaq islahatlarının həyata keçirilməsi hesab olunur.

3. KOS-un inkişaf etdirilməsi baxımından yanaşdıqda İAEƏ-də torpaq islahatlarının və aqrar islahatların aparılması ilə bağlı mövcud təcrübənin çatışmazlıqlar nəzərə alınmalıdır. Başqa sözlə, Azərbaycan Respublikasında 1995-ci ildən başlayaraq aparılan aqrar islahatlar və torpaq islahatları zamanı torpaqların əhəmiyyətli hissəsi xırda əmtəə istehsalçılarına kiçik həcmdə paylanmışdır və bu isə kənd təsərrüfatında növbəli əkin sisteminin tətbiqini məhdudlaşdırır.

4. KOS-un inkişaf etdirilməsi istiqamətində zəruri tədbirlər çərçivəsində ilk növbədə ərazilərin təhlükəsizliyinin təmin edilməsi və delimitasiya və demarkasiya proseslərinin gerçəkləşdirilməsi, infrastruktur sistemlərinin formalaşdırılması, əhalinin dayanıqlı

məşğulluğunun təmin edilməsi həyata keçirilməlidir. Məhz bu tədbirlərin həyata keçirilməsindən sonra KOS-un inkişaf etdirilməsi ilə bağlı ilkin dövlət yardımı proseslərinə başlanılmalıdır.

5. İAEƏ-də KOS-un inkişaf etirilməsi ilk növbədə kənd təsərrüfatı və turizm sahəsində həyata keçirilə bilər. Kənd təsərrüfatında KOS-un inkişaf etdirilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində dövlət tərəfindən əmtəə istehsalçılarına müvafiq torpaq sahələri ayrılması təmin edilməli və əmtəə istehsalçılarının ixtisaslaşma istiqamətlərinə uyğun, şəraitə uyğun sayda iri buynuzlu və xırda buynuzlu mal-qara ilə təmin edilməsi zəruridir.

6. İAEƏ-də ixtisaslaşma istiqamətlərinə uyğun olaraq KOS-un formalaşdırılmasına zəruri dəstək tədbirləri çərçivəsində dövlət büdcəsindən investisiya layihələrinin həyata keçirilməsinə ehtiyac vardır.

7. İAEƏ-də KOS-un inkişafının ən mühüm prioritet istiqamətlərindən biri turizm sektorudur. Xüsusilə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının turizm potensialı daha əlverişli hesab olunur və bu baxımdan aqroturizm və kənd turizminin inkişafına yönəlmiş xüsusi layihələrin hazırlanaraq həyata keçirilməsi məqsədəuyğundur. Belə yanaşma regionda məskunlaşmanı stimullaşdırmaqla əhalinin işlə təmin edilməsinə, məşğulluq səviyyəsinin yüksəlməsinə və sosial rifahın yaxşılaşmasına mühüm töhfə verə bilər. Eyni zamanda, turizm sahəsində KOS-un inkişafını dəstəkləmək üçün kənd turizminə xüsusi üstünlük verilməlidir. Bununla yanaşı, kənd yerlərində yaşayan insanların xarici və daxili turistləri qəbul etmək imkanlarının yaradılması, onların turizm xidmətləri göstərmək üçün zəruri bilik, bacarıq və resurslarla təmin olunması xüsusi əhəmiyyət kəsb edir.

8. İAEƏ-də alternativ məşğulluğun və alternativ kənd təsərrüfatı sahələrinin fəaliyyətini təmin etmək məqsədilə arıçılığın inkişaf etdirilməsi və həmin məhsulların Qarabağ və Şərqi Zəngəzur brendləri adı altında xarici bazarlara çıxışını təmin etmək olar ki, bu da kiçik və orta sahibkarlıq subyektlərinə zəruri dövlət dəstəyi ilə mümkün olar.

Tədqiqatın yekununda aşağıdakı təkliflər əksini tapmışdır:

- İAEƏ-də fərdi sahibkarların kooperativ əsaslarla birləşərək fəaliyyətini gerçəkləşdirmək məqsədilə onların stimullaşdırılması

üçün Azərbaycan Respublikasının işğala məruz qalmamış digər regionlarından fərqli olaraq differensial subsidiyalaşdırma sistemindən istifadə edilməsi müsbət nəticələr verə bilər. Başqa sözlə, kooperasiyaya daxil olan əmtəə istehsalçılarının fərqli məhsuldarlığa, satışa və ixtisaslaşmaya görə yeni daha yüksək subsidiyaların verilməsi məqsədəuyğun olardı.

- İAEƏ-də sahibkarlığın bütün formalarının klassik əsası mövcud tələbata uyğun inkişaf etdirilməsinə istiqamətlənmiş fəaliyyət gerçəkləşdirilməlidir. Bu baxımdan iri sahibkarlıq qurumları daha çox xarici bazarlara istiqamətlənmiş məhsul istehsalı və xidmətlər göstərilməsini həyata keçirilərək stimullaşdırılmalıdır. KOS-larda isə ilk növbədə əhali məşğulluğunun təmin edilməsi, eləcə də əhali gəlirlərinin artırılmasına istiqamətlənmiş fəaliyyəti nəzərə alınmaqla daxili bazarın yerli məhsullarla təmin edilməsi ön plana çəkilməlidir.
- İAEƏ-də KOS-un inkişaf etdirilməsi ilk növbədə həmin regionlarında daha doğrusu Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarının iqtisadi potensialına və ixtisaslaşma istiqamətinə uyğun olaraq həyata keçirilməsi məqsədəuyğun olardı. Bununla əlaqədar inikişaf tələblərindən biri kimi məqsədli proqramın hazırlanması və həyata keçirilməsi zəruri hesab edilə bilər.
- İAEƏ-in kənd təsərrüfatı potensialını nəzərə alaraq, bu ərazilərdə mövcud resurslardan istifadə edərək, istehsal prosesinin həyata keçirilməsini stimullaşdırılması və eləcə də məşğulluq səviyyəsinin artırılması, həmçinin bu ərazilərdə sahibkarlığın daha da inkişaf etdirilməsi üçün vacib tədbirlərdən biri kimi aqroemal müəssisələrinin yaradılması təcrübəsinin genişləndirilməsi müsbət nəticələr verə bilər.
- İAEƏ-də KOS-un inkişafının əsas prioritet istiqamətlərindən biri xidmət sahəsində sahibkarlığın genişləndirilməsidir. Təhlillər göstərir ki, hazırkı şəraitdə əhalinin sürətli məskunlaşması prosesləri tam həyata keçirilmədiyindən, xüsusilə Laçın rayonunda xidmət sahəsi kifayət qədər məhduddur; məsələn, rayon ərazisində yalnız 4 kafe və bir neçə istirahət kompleksi fəaliyyət göstərir. Bu müəssisələrdə müştərilərə təqdim olunan xidmətlərin qiymətləri əlçatan səviyyədə deyil və təklif edilən qida məhsulları nisbətən

yüksək qiymətə satılır. Nəticədə, bu şərait daxili və xarici turistlərin tələblərini tam qarşılamır. Odur ki, dayanıqlı məskunlaşma tədbirləri həyata keçirilərkən xidmət sahəsindəki sahibkarlıq subyektlərinin sayının artırılması, azad rəqabət prinsipləri əsasında KOS subyektlərinin yaradılması xüsusi diqqət mərkəzində olmalıdır. Bu isə daxili və xarici turistlərin tələblərinə uyğun xidmətin təşkili və müştəri məmnuniyyətinin təmin olunması üçün əlverişli imkanlar yarada bilər.

- İAEƏ-də KOS-un inkişaf etdirdirilməsi üçün informasiya kommunikasiya texnologiyalarının təmin edilməsi və bu sahəyə həmin regionlarda sürətli internet xidmətlərinin yaradılması, sosial şəbəkələrin imkanlarının genişləndirilməsi və digər bu kimi sosial xidmətlərin genişləndirilməsi məqsədəuyğun olardı.
- İAEƏ-də kadr hazırlığı proseslərinin genişləndirilməsi məqsədi ilə gələcəkdə Qarabağ Dövlət Universitetinin nəzdində və eləcə də müstəqil kolleclərin və peşə təhsili müəssisələrinin yaradılması ön plana çəkilməli və eyni zamanda xüsusilə kənd təsərrüfatı və əmtəə istehsalçılarının və eləcə də turizm sahəsində fəaliyyət göstərən sahibkarlıq qurumlarına informasiya məsləhət xidmətlərinin göstərilməsi vacibdir. Bu baxımdan xarici turistləri cəlb etmək məqsədilə xarici dilləri bilən və informasiya kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməyi bacaran kadrların yetişdirilməsinə də xüsusi diqqət göstərilməlidir.

**Dissertasiya işinin əsas müddəaları müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır**:


1. Osmanov, E.F Biznesin strateji idarə edilməsində innovasiya layihələrinin iqtisadi səmərəliliyinin artırılmasının əhəmiyyəti. // – Bakı: “Elmi iş” beynəlxalq elmi jurnalı, 2020 №1 – s. 54-58.
2. Osmanov, E.F Azərbaycanda əlverişli biznes mühitinin təmin oıunması və biznesin idarə olunmasının konseptual əsasları // – Bakı: “Elmi iş” beynəlxalq elmi jurnalı, 2020, № 8 – s. 105-108.
3. Osmanov, E.F. Formation and development of small and medium enterprises ın the liberated territories // – Bakı: “Elmi iş” beynəlxalq elmi jurnalı, 2021. №15 – pp. 69-73.

4. Osmanov, E.F Entrepreneurship development in the occupied areas, // – Bakı: Elmi tədqiqat, Beynəlxalq elmi jurnal - VI beynəlxalq elmi araşdırmalar 2021, – pp. 38-40

5. Osmanov, E.F. Simbiotik münasibətlərin Azərbaycanda fəaliyyət göstərən kiçik və orta müəssisələrə təsiri. // – Bakı: Audit 2022, №2 (36), – s. 118-128.

6. Osmanov, E.F. Kiçik və orta sahibkarlığın inkişafının bəzi nəzəri-metodoloji məsələləri. // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnal 2023, № 4 (71). – s. 140-145.

7. Osmanov, E.F. Kiçik və orta sahibkarlığın iqtisadi mexanizmi və onun tərkib elementlərinin formalaşdırılmasının bəzi məsələləri // – Bakı: Azərbaycan Elm Mərkəzi Qədim Diyar Beynəlxalq onlayn elmi jurnal impakt faktor 1028.2023 2023. – s. 59-64.

8. Osmanov, E.F Management Mechanisms Of Small And Medium Enterprıses. // – Bakı: Elmi xəbərlər, İctimai və texniki elmlər seriyası 2023 № 4 – pp. 262-267.

9. Османов, Е.Ф Некоторые вопросы формирования конкурентоспособности малого и среднего предпринимательства в современных условиях // – Москва: Экономика и управление: проблемы, решение №12 том 6 декабрь 2023. – стр. 20-27.

10. Osmanov, E.F Qarabağ iqtisadi zonasında kiçik və orta sahibkarlığın inkişafı üçün vergi güzəştlərinin və preferensiyaların tətbiqi // – Bakı: "Tikintinin iqtisadiyyatı və menecment" jurnalı, 2024, №1. – s. 456-465.

11. Osmanov, E.F İşğaldan azad olunmuş ərazilərdə orta sahibkarlığın inkişafında yarana biləcək risklərin aradan qaldırılması yolları // – Bakı: "İqtisadi artım və ictimai rifah" jurnalı, 2024, №1 – s. 82-90.

12. Osmanov, E.F İşğaldan azad olunmuş ərazilərdə kiçik və orta sahibkarlıq arasında yaranmış rəqabətqabiliyyətliliyin ölçülməsi // – Bakı: "Yaşıl iqtisadiyyat davamlı inkişafın modeli kimi" mövzusunda Beynəlxalq elmi-praktiki konfransı 2024, – s. 406-408.

13. Османов, Е.Ф Направления обеспечения финансового доступа для МСП, действующих на освобожденных территориях / Казанский Международный Конгресс Евразийской Интеграции – 2024. – стр. 368-381.

14. Osmanov, E.F İşğaldan azad edilmiş ərazilərdə kiçik və orta sahibkarlığın formalaşdırılması və inkişaf istiqamətləri // – Bakı: Elmi Qaynaqlar XX respublika elmi konfransı, 2025 – s. 29-32.

Dissertasiyanın müdafiəsi 20 may 2026-cı il, saat $16^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 18 aprel 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 46189 işarə

Tiraj: 100